# XƏYANƏTİN KƏSİŞMƏSİ



*Rüstəm CABBAROV*

*(Əvvəli ötən saylarımızda)*

... Hər bir insan öz gələcəyini gəncliyində təsəvvür edir. Kimsə öz gücünə görə hər şeyə nail olmaq istəyirsə, başqası ata-anasının gücünə və sərvəti nəticəsində varlanacağına inanır. Bəzi insanlar isə, gələcəkdə yaxşı yaşamağı başqalarının uğursuzluğy və məğlubiyyəti hesabına qurmaq istəyir. Öz qarşısına qoyduğu məqsədlərə catmaq üçün bütün əziyyətlərə hazır olur. Onlar üçün dost da, insanlıq da, sevgi də heç bir əhəmiyyət daşımır. Fəyaz ən yaxın dostu, otaq yoldaşı Daniyarın məhəbbətinə göz dikdikdə, o ancaq və intiqam almağı düşünürdü. Əlbətdə ki, uzun müddət dostunun göz altı elədiyi qızın başını aldadtmaq elə də asan iş deyildi. Ancaq nə olursa olsun, o, Daniyara nəyə qadir olduğunu göstərmək istəyirdi.

Şahmat yarışından çox keçmədi. Daniyar lazımı iş üçün dekanatdan icazə alıb kəndə getmişdi. Elə həmin gün yataqxanada tələbə yoldaşlarından birinin ad günü qeyd olunurdu. Süfrədə təbi ki, spirtli icki də var idi. Həmin gün qızlar da oğlanlarla birgə az-az köpüklənən şərabdan içdilər. Bir az utancaq və utandığından kənarda oturan Şərqiyənin içməsinə tələbə yoldaşları icazə vermədilər.

Sonra hərə öz otağına dağıldı. Fəyaz otağa girib, rahatlanmağa hazırlaşırdı ki, çöl qapısı döyüldü. Acdıqda qapının astanasında Şərqiyənin durduğunu gördü. Bir az əvvəl içilən şərabın təsirindən onun gözləri xumarlanırdı.

-Mənim dəftərim Daniyarda idi,- Şərqiyə gözünü Fəyazın kəskin, bir balaca içmiş gözlərindən qaçırmağa çalışaraq dedi, - onu verə bilərsinizmi.

-Mən onun şeylərinə toxunmuram. - Fəyaz cilalanmış halda qıza yaxınlaşdı. Ancaq sizin sələhətiniz var. Budur onun siyirməsi, orada varsa götürün.

Qız kitab dəftərlərə baxan zaman, Fəyazın qəlbinə şeytan girdi: - Budur, tapdım- Şərqiyə nəhayət tapdığını götürərək dedi. -Gələndə ona deyərsiz.

-Yaxşı, şirinim,- Fəyaz belə deyərək yanından ötüb keçmək istəyən Şərqiyənin biləyindən yapışaraq qucaqladı. Şərqiyə qəfildən baş vermiş hadisənin mahiyyətini anlamağa calışana kimi, özünü yüngülcə sərxoş olan oğlanın qucağında gördü...

...- Nə etdiniz,- özünü əla alın dedi, baş vermiş xoşa gəlməz hadisəni anlayaraq qız göz yaşlarını saxlaya bilmirdi- indi Doniqa nə deyəcəm? Nə baş verdi? Eh, Allah, niyə belə etdiniz?

-Dəli, mən səni sevirəm,-Fəyaz onun gözyaşlarını yumşaq bir şəkildə silərək pıcıltı ilə dedi. O zamandan bəri sənə aşiq olmuşam. Nə edə bilərəm, sənə catmaq üçün başqa çıxış yolu tapmadım. Çoxlu götür qoydan sonra belə qərara gəldim. Budur, indi mənim xəyallarım gerçək oldu. İndi heç kim səni mənim əlimdən ala bilməz.

...O Şərqiyənin belə asan ələ keçəcəyinə və eynilə dostundan intiqam aldığına sevinsə də, bunun son nəticəsinin nə olacağını düşünməmişdi. Əslində , gördüyü işin nəticəsi barədə düşünmək Fəyazın təbiətinə uyğun gəlmirdi.

Daniyarla birtəhər əlaqəni bərpa edə bildi. O hətda tövbə etməyə kömək etdi. Onun Şərqiyə ilə evlənməkdən başqa əlacı qalmamışdı. Bu da elə cətin deyildi. Onsuzda o kiminləsə evlənməliydi. Şərqiyə pis qız deyildi, onun ağlı yerindədi. Daniyarla görüşüb, söhbətləşsə də Daniyar onun əlindən belə tutmamışdı.

Evdəkilərə vəziyyəti dəqiqliyi ilə izah etdikdən sonra, elçi göndərərək qızı istəmişdi. Qız tərəfi əlacsızlıqdan razılıq verərək, bahar aylarında toya hazırlaşırdı. Hələlik həmin acnacaqlı axşam baş vermiş hadisənin sirri aydın olmasa da toy şənliyinin vaxtı tezləşdirilməli idi, çünki bu sirrin üstünün açılacağı aydın idi.

Fəyaz gördüyü işdən peşman deyildi. Baxmayaraq ki, o şahmat yarışında məğlub oldu, ancaq həyatda rəqibindən üstün olduğunu sübut etdi. Daniyarın da hadisəylə barışmaqdan başqa yolu qalmamışdı. Mərd oğlan olaraq öz kədərini içində saxladı. Düşmənşilık belə saxlamadı. Hətda bir otaqda heç nə baş verməmiş kimi yaşadılar. Ancaq əvvəllər olduğu kimi aralarındakı yaxınlıq, səmimiyyət və inam yox oldu.

O günlərdən biri idi. Payızın son aylarında uzaq vilayətlərin brindən təhsilini davam etdirmək üçün köcrülən qızın gəlib tələbələrə qoşulması ilə Fəyazın bütün planları dəyişdi. Özünü aparması, geyimi, bəzək düzəyi qızın varlı ailədən olmasını göstərirdi. Xüsusilə tələbə yoldaşlarına bahalı şokalad və siqaret payladığı gün Fəyaz buna tam əmin oldu.

Məlum olduğuna görə, o zəngin bir ailənin yeganə uşağı idi. Atasının xüsusi şirkəti, zəngin imarətləri, qoşa qoşa avtomobilləri vardı. Hətda yaxın günlərdə atasının ona şəhərin mərkəzində mənzi də alacağı deyilirdi. Axı, belə bir şans həmişə qarşıya çıxmayacaqki!

Fəyaz səhvə yol verdiyini yalnız sonralar anladı. Niyə bu qız kiçik şahmat turnirindən əvvəl gəlib onların qrupuna qoşulmadı?

Fəyaz əlindən gələni etsədə, bir gözəlin qarşısında çox gözəl ola bilməyəcəyini gördü. Ancaq ən yaxın dostunun sevgilisini əlindən aldıqdan sonra, heç aradan bir ay keçməmiş, yenidən başqa bir balığı tora salmaq demək olar ki, mümkün deyildi. Bu vəziyyətdə Şərqiyəni tərk etmək mümkün deyildi. Validеynləri hər şeyi bilirdi.

Qısası, dərdini udmaqdan başqa əlacı yox idi. Sonra kursdakı oğlanlardan bir ikisinin qızla münasibət qurmağa calışdıqlarından da məlumatı vardı. Belə "əvəzsiz xəzinəni" hansı oğlan istəməzdi ələ keçirsin? Qızın otrub-durmasına, tələbələr arasında özünü aparmasına nəzər saldıqda, cazibəliyi ilə digərlərinə oxşamırdı.

Fəyazı qızın dərs vaxtı gözlərini ondan çəkməməsi yandırıb yaxırdı. Bu qızı əla ala bilərmi? Əla ala bilsə onda ev, iş barədə düşünməmək olar. Elə toy şənliyini də gəlin tərəfi təşkil edərdilər. Ən əsası isə qaynatasının bütün var dövləti ona qalardı. Bir az diqqətsizlik etsə, Şokirmi, Umidmi, ya da başqası onun bütün planlarını pozacaq. Fəyaz isə utandığından Şərqiyə ilə kirayəyə ev axtarmağa yollanacaq.

Elə kitabxanadakı görüşdə bu məsələ həl olundu. İki gəlmə şirin sözlərlə Visaləni mum edib qoydu. Ancaq Şərqiyə... Əgər o ortada olmasaydı, nə edəcəyini bilirdi. Bu qədər qızla gəzib sonra onların əlindən sürüşərək çıxıb qacmaqda usta olmuşdu. Amma bu dəfə ciddi məsələdir.

## *povest*

Bir ayın icində elə bir vəziyyət yarandı ki, Visalə onu görməyəndə ağlı başından cıxırdı. Hər bir vəziyyətdə sudan quru çıxmağı bacaran Fəyaz, Şərqiyəyə heç nəyi bildirmədi. Belə bir vəziyyətdə toy şənliyinin vaxtı yaxınlaşırdı. Evlənsə hər şey bitdi, Visoləni də, onun mal dövlətini də ancaq yuxusunda görə bilərdi. Öz gücü ilə bu qədər var dövlətə sahib olmaq elə də asan deyildi.

Xəyalında qurduğu bu ölümcül zərərli plan əvvəla reallıqdan bir qədər uzaq görünürdü. Ancaq zaman keçdikcə qəlbində məkirli bir plan cızdı. Beynində bu planın ən incə aspektlərini belə aydınlaşdırdı. Deməli bunu etmək olar. Yalnız Visolə razı olsa...

-Nə deyirsiz,- prospektin qaranlıq küncündə, taxta oturacaqda Fəyazın ciyninə başını qoyaraq onun sözlərinə diqqətlə qulaq asan qızı birdən elə bil tok vurdu.

-Axır... axı bu... bunun olması mümkün deyil.

-Şirinim mənim, bir fikirləş, bizim bir yerdə olmağımız üçün bundan başqa çıxış yolumuz yoxdur. Yox desən, Şərqiyə ilə evlənməli olacam. Axı ondan keçə bilmərəm.

-Beləsiz-də!-qızın gözləri doldu.

-Səninlə tanışlığımdan qabaq, mən Şərqiyəyə belə baxmırdım. Nə etməliyik, biz çox geç görüşdük.

Visola yenidən üzünü oğlanın yaxasına sıxıb, hönkürtülə ağladı.

-Sizsiz mənim bu həyatda yaşamağım nəyə gərək. Əgər canımı istəsəniz, çıxarıb verərəm, ancaq belə xahiş etmə...

-Mən... mən sənə çatmaq üçün bu dəhşətli işlə razılaşmışam ki, -ətrafa biriki dəfə göz gəzdirib, oğlan köksünü otürdü. -Mən tək olsaydım, belə şeyləri ağlıma gətirməyə qorxardım.

-Yox, yox, bu ola bilməz, -Visolə qətiyyətlə dedi.

Aradan üç-dörd gün keçdi. Fəyaz Visolənin bu təklifə razı olacağını bilirdi. Onun qısqanclığını təhrik etmək, icində yanğın və intiqam hisslərini oyatmaq üçün onun gözü qarşısında bir iki dəfə Şərqiyə ilə zarafat etməli oldu.

-Mən buna dözə bilmərəm,-Visola növbəti gizli qörüşdə dödaqlarını dişləyərək dedi. Mənim gözüm qarşısında onunla səni gülümsəyən görəndə, ikinizi də xırda xırda doğramağım gəlir.

-Əlindən gələrmi?-Fəyaz yenə onun sinirləri ilə oynadı. - Özün mənim təklifimdən boyun qacırdın ki! Niyə indi mən onunla danışanda qəzəblənirsən? Axı biz nişanlanmışıq. İki aydan sonra toyumuzdu. Gələcəksənmi?

Visolə acı acı ağlayaraq soruşdu:

-Siz onda, nə edin dediniz?

-Sən heç nə etməyəcəksən, - Fəyaz qıza barmaqlarını təbəssümlə silkələyərək dedi. Sən yalnız şahid kimi xidmət göstərəcəksən. Məndən şübhələnməsələr, cinayəti başqa birinin boynuna qoyacaqlar. Biz ikimizdə gələcəyin hüquqşunasıyıq. Birləşsək, asanlıqla sudan quru cıxarıq.

Visolə bir an içində dayandı.

... Yataqxanada rahat bir vəziyyət yaratmaq lazım idi. Əgər dekanat icazə versə, qış tətilini asanlıqla yataqxanada keçirmək memkündü. Visola hər şeyə razıdır. Şərqiyəyə ehtiyatlı olmaq qalır. Dənyar keçən il də qış tətilinə getməmişdi. Özü də evə getmək istəmirdi. Atası başqa qadınla ailə qurduqdan sonra onun öz evlərinə ayaq basmağı belə gəlmirdi. Özünə möhkəm alibi hazırlamaq üçün daha bir iki nəfər lazımdır.

Bunun üçün Masudbəy ən yaxşı namizəd idi. Ən mühümü isə o saatla iş görmürdü. O, çox ağıllı bir oğlandır, saat gəzdirmirdi.

Həmin dəhşətli gecə Masudbəyi idman kompleksində onu görəcəyinə əmin idi. İki gündür ki, Daniyarın qızdırma içində yatması işə bir az manie ola bilərdi. Axı xəstə insandan kim şübhələnərdi? Ancaq belə bir fürsəti də əldən buraxmaq mümkün deyildi.

Plana görə, Fəyaz əvvəla Daniyarın öz otağında xəstəlikdən yatdığını, nələrin baş verəcəyini anlamaq halında olmamasına əmin olduqdan sonra, Daniyarın alışqanını götürüb cibinə qoydu. Daha sonra, onun terliklərini düzəltdi və aşağıya ikinci mərtəbəyə düşdü. Razılaşmaya görə o vaxt Visolə otaqda olmamalı idi. Qapını Şərqiyənin özü açdı. Yəqin ki, o nədənsə narazı idi və üzü qar kimi ağarmışdı.

-Hə, şirinim, -deyərək Şərqiyənin uzun saçlarına adi bir məhəbbətlə toxundu. -Nə olub? Niyə kefin yoxdu?

-Mən bir şeydən şübhələnirəm,- Şərqiyə oğlanın qolunu geri itələyərək dedi.- Mənim fikrimcə, Visola ilə aranızda bir şey var. O da məndən nəyisə gizlədir.

-Yenə öz pis xəsiyyətini göstərməyəmi başladın?-Fəyaz həyacanını göstərməməyə calışdı. Bir dəfə də olsa mənim ona pis baxdığımı gördünmü?

- Görməsəm də, mənim qulağıma catıb,- qız oğlanın isti nəfəsindən behuş olsa da, səsinə ciddilik verdi.

-Ayıb olsun,-deyərək, Fəyaz onun iti baxışından gizlənməyə çalışdı. Öz rəfiqəni necə bilmirəm, məndən şübhələnə bilərsən?

Yersiz sualın verilməsini geç başa düşdü.

- Bunu Sizmi deyirsiniz?

Fəyaz divardan asılan saata baxdı. Vaxt ötüb keçirdi. Bir az geçiksə, hamısı alt-üst olacaqdı. Tələsmək lazımdı. Tələsmək.

Əvvəlcə qızı möhkəm qucaqlayaraq bağrına basdı. Bu məqamda sevincindən oğlanın qolları arasında mum kimi əriyən qız, onun qəlbində intiqamlı qılıncın zəhər üçün hazırlandığını bilmirdi. Hər dəfə o qəzəblənəndə onun ayaqlarını yerdən üzərək göyün yeddinci qatına qaldırar, buna görə də o, yer kürəsini və orada olan bütün şeyləri unudardı. Elə bu dəfə də, boynundakə nazik ipək yaylığın onu boğduğunu elə də tez anlamadı. O özünə gələndə artıq geç idi, boynunda şiddətli ağrı, sinəsində hava catışmamazlığı və ciddi ölüm təhlükəsi bir anda qızın əl qolunu iflic etdi.

Şərqiyənin öldüyünə əmin olan oğlan, onu qucağından yerə qoydu. Əl izlərinin qalacağı yerləri cib dəsmalı ilə silib təmizlədi. Öz istəyini həyata keçirməyə qəti calışdığı üçünmü, heç nəi his etməyərək, özünü teatr səhnəsində qatil rolunu ifa edən aktyor kimi qayğısız və sakit apardı.

Alışqanı carpayının ayaqlarının yanına atdı. Ehtiyatla stolun üstündə duran telefonda vaxt göstəricisini bir saat geri cəkməyi unutmadı. Eyni anda qapı açıldı və astanada sifətinin rəngi qaralmış Visolə göründü. O qışqırmaq istəyəndə, iki əli ilə öz ağzını tutdu.

-İndi arxaya yol yoxdu,- soyuq bir şəkildə dedi. -Əgər biz hər bir işi yaxşı görə bilsək, heç kim bizi bu işdə günahlandırmaz.

-Siz onu...öldürdünüzmü? -Visolənən gözləri parıldayırdı. Həqiqətən siz onu...

-Səssiz,-Fəyaz onun yaxasından tutub silkələdi. - Axı bunu sənin üçün etdim. İndi bu vəziyyətdən cıxmaq lazımdı. Ancaq sən özünü itirmə. Hamısı danışdığımız kimi olmalıdı. Mən tələsirəm. Hə, telefonunu bəri ver.

***(Davamı var)***

***Özbək dilindən tərcümə edən:***

*Ədalət* Məmmədov